

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 77 (21.738)

25 aprel 2017-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Toxumçuluq təsərrüfatında qapalı suvarma şəbəkəsi qurulacaqdır







Rentabelli suvarma şəbəkələrinin qurulması əkinçiliyin inkişafında vacib şərtdir. Çünki mütərəqqi suvarma metodlarının tətbiqi bol məhsul istehsalı ilə yanaşı, həm də torpaq və su ehtiyatlarından səmərəli istifadəyə imkan verir. Muxtar respublikada bu sahədə görülən işlərin davamı olaraq "Bərəkət Buğda Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyətinin toxumçuluq təsərrüfatının Kəngərli rayonunun Böyükdüz kəndindəki əkin sahələrində yeni qapalı suvarma şəbəkəsi qurulacaqdır.

Aprelin 22-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov qapalı suvarma şəbəkəsinin layihəsinə və tikinti aparılacaq əraziyə baxmışdır.

Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin sədri Əsgər Əsgərov məlumat vermişdir ki, tikinti aparılacaq ərazinin relyefi və torpaq xüsusiyyətləri nəzərə alınmış, əkin sahəsinə suvarma suyunun verilməsi təmin edilmişdir. Qapalı suvarma şəbəkəsi toxumçuluq təsərrüfatının 400 hektar əkin sahəsində qurulacaqdır. Layihəyə uyğun olaraq ərazidə 4380 metr dəmir borularla ana xətt və 41 min 680 metr plastik borularla paylayıcı suvarma şəbəkəsi çəkiləcəkdir. Xətlərin üzərində 95 sutənzimləyici siyirtmə, 480 hidrant və 93 suburaxıcı quraşdırılacaqdır. Tikinti zamanı ölkəmizdə istehsal olunan plastik borulardan və digər materiallardan istifadə olunacaqdır.

Ali Məclisin Sədri qapalı suvarma şəbəkəsi üzrə tikinti işlərinin başlanmasını bildirən qurğunu işə salmışdır.

Bildirilmişdir ki, son 3 ildə muxtar respublikada 3100 hektar sahədə qapalı suvarma şəbəkəsi qurulmuşdur. Yeni qurulan qapalı suvarma şəbəkəsi də ərazinin su təminatını yaxşılaşdıracaq, şoranlaşmaya və su itkisinə yol vermədən əkin sahələri tələb olunan miqdarda suvarma suyu ilə təmin olunacaqdır.

Ali Məclisin Sədri çıxış edərək demişdir: Ərzaq təhlükəsizliyinin təmin olunmasında kənd təsərrüfatının inkişafı mühüm əhəmiyyət daşıyır. Eyni zamanda kənd təsərrüfatı hər bir ailənin iş yeridir. Ona görə də 5 milyon manat dəyəri olan bu layihə toxumçuluq təsərrüfatının əkin sahələrində qapalı suvarma şəbəkəsinin qurulmasına yönəldilmişdir. Azərbaycan Respublikası Hökuməti ilə Çin Xalq Respublikası Hökuməti arasında imzalanmış sazişə əsasən ölkəmizdə toxumçuluğun inkişafı üçün alınan yeni kənd təsərrüfatı texnikaları və toxumçuluq laboratoriyası avadanlıqları da muxtar respublikadakı toxumçuluq təsərrüfatına verilmiş, maddi-texniki baza möhkəmləndirilmişdir. Təsərrüfat üçün 2 min hektar torpaq sahəsi ayrılmış, meliorativ tədbirlər görülərək əkinəyararlı hala salınmışdır. İlkin mərhələdə ərazinin 400 hektarında, növbəti illərdə isə digər sahələrdə qapalı suvarma şəbəkəsi qurulacaqdır.

Ali Məclisin Sədri demişdir: Muxtar respublikanın iqlim şəraitinə uyğun toxum sortlarının yetişdirilməsi və paylanması toxumçuluq təsərrüfatının qarşısında duran əsas vəzifədir. Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyi, Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsi və digər aid təşkilatlar toxumçuluq təsərrüfatı ilə birgə ərazinin torpaq xüsusiyyətlərini öyrənməli, şoranlaşmanın qarşısı alınmalı, mütərəqqi suvarma sistemlərinin qurulması davam etdirilməli, məhsuldar toxum sortları yetişdirilərək muxtar respublika ərazisində yayılmalıdır. Toxumçuluq təsərrüfatının fəaliyyətə başlaması nəticəsində həm də yeni iş yerləri açılmışdır. Ona görə də göstərilən dövlət dəstəyindən və yaradılan şəraitdən səmərəli istifadə olunmalı, əkin sahələrindən bol məhsul götürülməli, təsərrüfat rentabelli işləməli və inkişaf etməlidir.

Qeyd olunmuşdur ki, Sovetlər Birliyi dövründə muxtar respublikada toxumçuluq təsərrüfatları fəaliyyət göstərməmişdir. Müstəqilliyin ilk illərində də toxumçuluq təsərrüfatlarının yaradılması imkan xaricində idi. Lakin bu gün ölkəmizdə qəbul olunan dövlət proqramlarının icrası toxumçuluq təsərrüfatlarının yaranması və inkişafına da səbəb olmuşdur. Bu səbəbdən də toxumçuluq təsərrüfatında bütün işlər elmi əsaslarla aparılmalı, aqrotexniki qaydalara əməl edilməli, məhsuldar toxum sortları yetişdirilərək tətbiq olunmalıdır.

Ali Məclisin Sədri toxumçuluq təsərrüfatının ölkəmizdə bu sahə üzrə nümunəvi təsərrüfata çevriləcəyinə əminliyini bildirmiş, qarşıya qoyulan vəzifələrin icrasında kollektivə uğurlar arzulamışdır.

Sonra Ali Məclisin Sədri toxumçuluq təsərrüfatının taxıl əkini sahələrinə baxmışdır. Bildirilmişdir ki, bu ilin məhsulu üçün 800 hektarda iqlim şəraitinə uyğun məhsuldar taxıl sortları əkilmişdir. Mütərəqqi əkin və suvarma metodlarından istifadənin, xüsusilə aqrotexniki qaydalara əməl olunmasının və zərərvericilərə qarşı aparılan mübarizə tədbirlərinin nəticəsidir ki, taxıl vegetasiya dövründə yaxşı inkişaf edir.

Ali Məclisin Sədri toxumçuluq təsərrüfatında taxılla yanaşı, məhsuldar bostan-tərəvəz sortlarının əkininin də aparılması, toxumluq məhsullara olan tələbatın ödənilməsi, eləcə də ərazidə yaşıllıqların salınması barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Akademik Zərifə Əliyevanın anadan olmasının 94 illiyinə həsr olunmuş elmi konfrans keçirilib

***Naxçıvan Dövlət Universitetində Yeni Azərbaycan Partiyası Universitet şəhərciyi ərazi ilk təşkilatı ilə birgə görkəmli elm xadimi, tanınmış oftalmoloq, akademik Zərifə Əliyevanın anadan olmasının 94 illiyinə həsr olunmuş elmi konfrans keçirilib.***

Universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov çıxış edərək bildirib ki, XX əsr Azərbaycan tarixinin görkəmli simalarından sayılan Zərifə xanım Əliyeva 1923-cü il aprelin 28-də qədim Naxçıvanın Şahtaxtı kəndində görkəmli ictimai və dövlət xadimi, xalqımızın böyük oğlu Əziz Əliyevin ailəsində dünyaya göz açıb. Atasının ömür yolu onun üçün əsl həyat məktəbinə çevrilib.

Vurğulanıb ki, Zərifə xanım Əliyeva dünyada ilk dəfə olaraq görmə orqanının peşə patologiyasını araşdıran elmi-tədqiqat laboratoriyası yaradıb və praktik olaraq elm aləmində yeni bir istiqamətin – "peşə oftalmologiyası"nın əsasını qoyub. Bu mənada, oftalmologiyada peşə xəstəlikləri probleminin öyrənilməsi böyük alimin adı ilə bağlıdır. Oftalmologiyanın sənaye ilə bağlı problemlərinin öyrənilməsinə həsr etdiyi fundamental tədqiqatları ona böyük şöhrət gətirib. O, görmə orqanlarının virusla zədələnməsinə, bu səpkidə aparılan müalicə-profilaktika tədbirlərinə silsilə işlər həsr edib.

Konfransda Əczaçılıq və stomatologiya kafedrasının baş müəllimi Çinarə Məmmədova "Azərbaycan oftalmologiya elmində Zərifə Əliyeva məktəbi" , Tibbi profilaktika ixtisası üzrə III kurs tələbəsi Türkanə Məmmədova "Gözəl həkim, unudulmaz şəxsiyyət" mövzusunda məruzələrlə çıxış ediblər. Məruzələrdə qeyd olunub ki, Zərifə xanım təkcə çoxşaxəli elmi-tədqiqat işləri aparmaqla kifayətlənməyib, yüksəkixtisaslı gənc alim kadrların yetişdirilməsinə və oftalmoloq həkimlərin ixtisaslarının artırılması işinə də xüsusi diqqət yetirib.

**Nərmin CABBAROVA**

## Yaşayış binaları əsaslı təmir edilir

*Naxçıvan Muxtar Respublikasında mənzil-tikinti sektoru üzrə uzunmüddətli vahid dövlət siyasətinin formalaşdırılması nəticəsində bu sektor günbəgün genişlənir. Əvvəlki illərdə olduğu kimi, cari ildə də muxtar respublikada həyata keçirilən quruculuq tədbirləri çərçivəsində əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması işləri əhəmiyyətli yer tutur. Belə ki, hazırda Naxçıvan şəhərinin "Atabəylər" məhəlləsində 1 və 13 nömrəli yaşayış binalarında yenidənqurma işləri aparılır.*

"Cahan İnşaat" Məhdud Məsuliyyətli Cəmiyyətinin inşaatçıları tərəfindən yenidən qurulan 1 nömrəli yaşayış binasında sökütü işləri yekunlaşdırıldıqdan sonra balkonlardakı arakəsmələrin hörülməsinə başlanılıb, fasad hissədə isə suvaq işləri aparılır, pəncərə kənarları hörülür. Binanın daxilində isə suvaq işləri yekunlaşdırılıb, kommunikasiya xətləri dəyişdirilib. Eyni zamanda yaşayış binasının dam örtüyünün vurulmasına başlanılıb. 13 nömrəli yaşayış binasının arxa fasadında isə suvaq işləri davam etdirilir, 1-ci mərtəbəyədək olan hissədə üzlük daşların vurulmasına başlanılıb. Daxildə isə suvaq işləri ilə yanaşı, kommunikasiya xətlərinin də-



yişdirilməsi də davam etdirilir. Bu yaşayış binasının zirzəmi hissəsində də xeyli iş görülüb. Belə ki, bu hissə tamamilə lazımsız əşyalardan təmizlənib və burada suvaq işlərinə başlanılıb. Yaxınlarda hər iki binanın pəncərələri dəyişdiriləcək, binanın fasadını milli memarlıq üslubuna məxsus dekorativ naxışlar bəzəyəcək.

**Xəbərlər şöbəsi**

*25 aprel Sahibkarlar Günüdür*

# Sahibkarlığın inkişafı iqtisadi siyasətin prioritet istiqamətidir

*Xalqımızın ümummilli lideri Heydər Əliyevin müstəqillik illərində Azərbaycana rəhbərliyi dövründə həyata keçirilən genişmiqyaslı islahatlar nəticəsində ölkəmizdə iqtisadi və siyasi sabitlik təmin edilmiş, iqtisadiyyatın dinamik inkişafının əsası qoyulmuşdur.* ***“Bizim yolumuz islahatlar yoludur. Yolumuz bazar iqtisadiyyatının inkişaf etdirilməsi yoludur. Yolumuz sahibkarlığın inkişaf etdirilməsi yoludur”****, – deyən ulu öndərin iqtisadi sahədə həyata keçirdiyi tədbirlər bazar iqtisadiyyatı mexanizmləri əsasında sahibkarlıq fəaliyyətinin də genişləndirilməsinə səbəb olmuşdur. Həmin dövrdə sahibkarlar sinfinin formalaşması üçün hüquqi bazanın hazırlanması və dövlət tərəfindən verilən hərtərəfli dəstək iqtisadiyyatda özəl sektorun payının yüksələn xətt üzrə artmasına səbəb olmuşdur.*



Ulu öndərin siyasi xəttini uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyev də sahibkarlığın inkişafını prioritet məsələyə çevirmişdir. Bu gün ölkə iqtisadiyyatında sahibkarların rolunun artırılmasına xüsusi diqqət yetirilir. Regionların sosial-iqtisadi inkişafı ilə bağlı dövlət proqramlarının uğurlu icrası ölkəmizin davamlı inkişafına, xüsusilə də sahibkarlıq fəaliyyətinin genişləndirilməsinə əlverişli şərait yaratmışdır. Dövlət başçısının 2016-cı il 21 aprel tarixli Sərəncamına əsasən hər il aprelin 25-nin Azərbaycanda “Sahibkarlar Günü” kimi qeyd edilməsi də bu sahəyə göstərilən dövlət qayğısının daha bir ifadəsidir.

Böyük uzaqgörənliklə işlənib hazırlanmış və həyata keçirilən iqtisadi inkişaf strategiyasının muxtar respublikamızda da uğurla davam etdirilməsi müasir və güclü infrastrukturun qurulmasına, özəl sektorun inkişafına, bu istiqamətdə bir sıra təşkilati, hüquqi və iqtisadi tədbirlərin görülməsinə, biznes fəaliyyəti üçün daha əlverişli mühitin yaradılmasına, yeni müəssisələrin qurulmasına, iş yerlərinin açılmasına zəmin yaratmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qayğısı ilə sahibkarlığın inkişafı istiqamətində ardıcıl, səmərəli və sistemli tədbirlər görülmüş, sahibkarlıq subyektlərinə səmərəli maliyyə dəstəyinin göstərilməsi mexanizmi formalaşdırılmışdır.



Muxtar respublikada sahibkarlığın, xüsusilə kiçik və orta sahibkarlığın inkişafına köməklik etmək, onlara maliyyə dəstəyi göstərmək və əhalinin məşğulluğunun təmin edilməsinə şərait yaratmaq məqsədilə Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin nəzdində Sahibkarlığa Kömək Fondu yaradılmışdır. Fondun vəsaitləri sosial-iqtisadi inkişafın prioritet istiqamətləri üzrə investisiya layihələrinin maliyyələşdirilməsinə yönəldilir. Fond tərəfindən bu günə qədər 1228 layihənin maliyyələşdirilməsinə 134 milyon 468 min manatdan çox vəsait ayrılmışdır. Həmin vəsait sənaye, xidmət və kənd təsərrüfatı təyinatlı müəssisələrin yaradılmasında istifadə olunmuşdur.

Naxçıvanda sahibkarlıq fəaliyyətinə kənar müdaxilələrin qarşısının alınması, onların hüquqlarının müdafiəsi diqqətdə saxlanılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2002-ci il 30 sentyabr tarixli “Sahibkarlığın inkişafına mane olan müdaxilələrin qarşısının alınması haqqında” Fərmanına müvafiq olaraq bu sahədə ardıcıl tədbirlər görülür. Ötən dövrdə muxtar respublikada 4274 sahibkarlıq subyekti nəzarət kitabçası ilə təmin edilmiş, İqtisadiyyat Nazirliyində yaradılmış “Qaynar xətt” vasitəsilə sahibkarlıq subyektləri ilə maarifləndirmə istiqamətində işlər aparılmışdır.

Sahibkarların fəaliyyətinin dövlət tərəfindən müdafiə olunması, milli sahibkarlığın inkişaf etdirilməsi, yerli istehsalçıların mənafeyinin xarici təsirlərdən qorunması və digər bu kimi funksiyaların yerinə yetirilməsi məqsədilə həyata keçirilən tədbirlərdən biri də bəzi fəaliyyət növlərinin lisenziyalaşdırılmasıdır. Ötən dövrdə lisenziya və icazə sisteminin tənzimlənməsinin hüquqi, iqtisadi və təşkilati əsaslarını müəyyən edən “Lisenziyalar və icazələr haqqında” Qanun qəbul edilmişdir. Qanuna əsasən muxtar respublikada sahibkarlıq fəaliyyəti üçün müddətsiz lisenziyaların verilməsinə başlanmış, lisenziya və icazələrin verilməsində “bir pəncərə” prinsipi tətbiq olunmuşdur.

Aparılan iqtisadi islahatların ən mühüm istiqamətlərindən biri də investisiyaların təşviqi ilə bağlı həyata keçirilən tədbirlərdir. İnvestisiya təşviqi sənədi ölkədə investisiya və biznes mühitinin yaxşılaşdırılmasına, eləcə də stimullaşdırılmasına nail olmaq məqsədi daşıyır. Belə ki, artıq muxtar respublikada investisiya təşviqi sənədinin tətbiqinə başlanmışdır. Hər il ənənəvi olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sahibkarlarla keçirdiyi görüş də sahibkarlıq subyektlərinin fəaliyyətinin stimullaşdırılmasında mühüm əhəmiyyətə malikdir.



Muxtar respublikada fəaliyyət göstərən sahibkarlıq subyektlərinin xarici əlaqələrinin inkişaf etdirilməsi, istehsal olunan məhsulların ixrac imkanlarının artırılması, xarici ölkələrdə tanıdılması məqsədilə onların nəinki ölkə daxilində, xaricdə keçirilən biznes-forum, konfrans, sərgi və digər tədbirlərdə də iştirakı təmin edilir. Ümumilikdə, 2002-2016-cı illərdə yerli və xarici ölkələrdə keçirilən 245 biznes-forum, sərgi və konfransda dövlət dəstəyi ilə 1300-dən artıq sahibkar iştirak etmiş, muxtar respublikanın nailiyyətlərinin və potensial imkanlarının 40-dan artıq ölkədə nümayiş etdirilməsi sahibkarlığın inkişafına güclü təkan vermişdir.

Həyata keçirilən kompleks islahatlar onu deməyə əsas verir ki, muxtar respublikada kiçik və orta sahibkarlığın inkişafı iqtisadi siyasətin prioritet istiqamətinə çevrilmişdir. Bu gün muxtar respublikada minlərlə sahibkarlıq subyektinin fəaliyyət göstərməsi, özəl bölmədə 69 mindən çox iş yerinin açılması, xarici iş adamlarına əlverişli mühitin yaradılması, ümumi daxili məhsul istehsalında özəl bölmənin payının artaraq 87 faizi ötməsi bu siyasətin real bəhrələridir.

Sahibkarlığa göstərilən qayğı, öz növbəsində, yerli istehsalın inkişafına da şərait yaradır. Yerli istehsalın inkişaf etdirilməsi isə daxili bazarın qorunmasında, xaricə valyuta axınının qarşısının alınmasında və idxaldan asılılığın azaldılmasında mühüm rol oynayır. Məhz bu amil nəzərə alınaraq, muxtar respublikada iqtisadiyyatın bütün sahələrində yeni istehsal və xidmət sahələri yaradılır, mövcud olanların fəaliyyəti bərpa edilir. Son illərdə 442 sənaye müəssisəsinin yaradılması, bu müəssisələrdə 367 növdə məhsul istehsal olunması, 344 növdə məhsula olan tələbatın tamamilə yerli istehsal hesabına ödənilməsi sahibkarlığın inkişafının nəticəsidir. Naxçıvan Muxtar Respublikasında sahibkarlara yaradılan şəraitdən istifadə edərək öz biznesini genişləndirən, yeni istehsal müəssisələri, iş yerləri yaradan, istehsal etdiyi məhsullarla ölkəmizi xaricdə layiqincə tanıdan, ümumilikdə, iqtisadi inkişafımıza, xüsusən də özəl sektorun inkişafına töhfə verən belə sahibkarlıq subyektlərinin sayı ilbəil artmaqdadır.



Sahibkarlığın inkişaf etdirilməsi, dövlətin sahibkara, iş adamına sahib çıxması iqtisadiyyatımızın dinamik inkişafına, əhalinin həyat şəraitinin yaxşılaşdırılmasına, yeni iş yerlərinin açılmasına, mövcud ictimai-siyasi sabitliyin daha da möhkəmlənməsinə töhfə verir. Bu səbəbdən də yaradılan şəraitdən və göstərilən dövlət dəstəyindən səmərəli istifadə etmək, muxtar respublika iqtisadiyyatının inkişafına töhfə vermək sahibkarların qarşısında duran əsas vəzifə olmalıdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: “***Əldə olunmuş nəticələrə əsaslanaraq demək mümkündür ki, muxtar respublikada sahibkarlığın inkişafı üçün nəzərdə tutulmuş tədbirlər vaxtında həyata keçirilir. Qalır təşəbbüs göstərmək və mövcud şəraitdən səmərəli istifadə etmək. Bu gün dövlət orqanlarının sahibkarlığın inkişafına baxışı aydındır. Biz nə istəyirik? İstəyirik ki, sahibkarlar sinfi formalaşsın, sahibkarlığın inkişafı hesabına yeni iş yerlərinin açılması, keyfiyyətli məhsul istehsalı davam etdirilsin. Bir sözlə, hər bir sahibkar məqsədyönlü fəaliyyəti ilə öz biznesinin və ölkə iqtisadiyyatının inkişafına töhfəsini verməlidir***”.

**Naxçıvan Muxtar Respublikası**
**İqtisadiyyat Nazirliyinin**
**mətbuat xidməti**

# Sədərək rayonunda aqrar sahə sürətlə inkişaf edir

***Muxtar respublikamızın bütün bölgələrində olduğu kimi, Sədərək rayonunun təsərrüfatlarında da torpaq mülkiyyətçiləri tərəfindən aparılan əkin işləri davam etdirilir. Rayonda taxıl sahələri əkilir, yeni meyvə bağları salınır.***

Muxtar respublikamızda torpaq mükiyyətçilərinə göstərilən dövlət qayğısı, onlar üçün hərtərəfli şəraitin yaradılması, texnika və gübrə ilə təchizatda tətbiq olunan güzəştlər sədərəkli torpaq mülkiyyətçiləri tərəfindən minnətdarlıqla qarşılanır, onları daha həvəslə işləməyə sövq edir. Əkin sahəsində həmsöhbət olduğumuz zəhmət adamları yaradılan bu şəraitin bu il də bolluq-bərəkət gətirəcəyinə əmindirlər.

Belə zəhmət adamlarından biri olan Qafar Zeynalov dedi ki, həl il müxtəlif kənd təsərrüfatı bitkiləri əkir, çəkdiyi zəhmət hesabına yaxşı qazanc əldə edir. Bundan başqa, müxtəlif texnikalarla əkin və biçin zamanı digər torpaq mülkiyyətçilərinə də köməklik göstərilir. Dövlətimiz tərəfindən yaradılan hərtərəfli şərait hər il bu sahədə yeniliklər etməyə imkan verir. Ümumiyyətlə, rayonda son illərdə aqrar sahənin inkişafı hər bir torpaq mülkiyyətçisini daha da ruhlandırır, yeni-yeni uğurlar qazanmağa həvəsləndirir.

Bu günə olan məlumata görə, rayon ərazisində 200 hektarda şum qaldırılıb, 70 hektara arpa, 15 hektara qarğıdalı, 7 hektara soğan, 10 hektara bostan bitkiləri, 8 hektarda noxud, 30 hektarda yonca, 1 hektarda kartof əkilib. Hazırda yaz əkinləri davam etdirilir, əkilmiş ərazilərin suvarılması müasir texnologiyalarla təmin olunmuş nasos stansiyaları hesabına həyata keçirilir.

Xatırladaq ki, ötən il 1947 hektar taxıl sahəsindən 6301 ton məhsul əldə edilmiş, hər hektarın məhsuldarlığı 32,4 sentner olmuşdu. Cari ilin məhsulu üçün keçən ilin payızında 2217 hektar əkin sahəsi taxıl üçün ayrılıb. 1706 hektarda buğda, 511 hektarda arpa əkilib. Qış aylarında yağıntının çox olması torpaq mülkiyyətçilərinin bol məhsul əldə edəcəklərinə ümidləri artırıb. Payız əkinləri zamanı mülkiyyətçilərə 389 ton gübrənin güzəştli şərtlərlə verilməsi də məhsuldarlığa müsbət təsir göstərən amillərdəndir.

Rayonda heyvandarlığın da inkişafına xüsusi diqqət yetirilir. Hazırda rayonda 2230 baş iribuynuzlu, 17 min 300 baş xırdabuynuzlu heyvan bəslənilir. Uzun illərdir, heyvandarlıqla məşğul olan Rəşid Əsgərov dedi ki, rayonda baytarlıq xidmətinin yüksək səviyyədə həyata keçirilməsi, heyvandarlar üçün lazımi şəraitin yaradılması bu sahədə daha yaxşı nailiyyətlər qazanılmasına imkan verir. Vaxtilə bu sahəyə o qədər də maraq göstərməyən kənd sakinləri indi daha həvəslə çalışırlar. Çünki istehsalçıların bazara çıxış imkanları da artırılıb. Naxçıvan şəhərində hər həftənin şənbə günü keçirilən yarmarkalarda sədərəkli məhsul istehsalçıları da fəallıq göstərirlər. Çalışacağam ki, bundan sonra da muxtar respublikada yaradılan məhsul bolluğuna öz töhfəmi verim.

Bağ salmaq babalardan qalıb deyirlər. Sədərəkdə bu gün müxtəlif meyvə bağları var. Bu gün Heydərabad qəsəbəsində çiçəyə bürünmüş meyvə ağacları göz oxşayır, bolluqdan xəbər verir. Mütəmadi olaraq keçirilən iməciliklərdə qulluq göstərilən ağacların bar-bəhəri daha da artır.

Sədərək kəndinin sakini Gündüz Həsənov illərdir ki, öz meyvə bağında müxtəlif meyvələr yetişdirir. Təcrübəli bağban ötən illəri xatırlayaraq deyir ki, 90-cı illərin əvvəllərində mavi yanacaq verilişinin dayandırılması kənddə ən çox bağbanlara ziyan vurub. Bəzən elə olurdu ki, sakinlər bağlarından yaş ağacları da kəsib yandırırdılar. O dövrdə heç kimi buna görə qınamaq da olmurdu. Ancaq yaxşı ki, hər şey yoluna düşdü. İndi Sədərəkdə elə bir ev olmaz ki, elektrik enerjisi və mavi yanacaqla təmin edilməsin. Bu da, təbii ki, bağların yenidən bərpa olunmasına, yeni meyvə sortlarının yetişdirilməsinə geniş imkan yaradır.

Bu gün sədərəkli bağbanlar qonşu ölkələrin də bağçılıq təcrübəsindən istifadə edir, yerli sortlarla bərabər, xaricdən gətirilmiş məhsuldar sortlardan istifadə edirlər. Muxtar respublikada fəaliyyət göstərən tingçilik təsərrüfatlarının fəaliyyəti bu baxımdan təqdirəlayiqdir. Bu təsərrüfatlardan alınan tinglərin həm qiymətləri sərfəlidir, həm də onlar yerli təbii şəraitə tez uyğunlaşırlar.

Son illər muxtar respublikamızda üzümçülüyün inkişafına da xüsusi diqqət yetirilir. Artıq Sədərəkdə də yeni üzüm bağları salınır. Rayonda üzümçülüklə məşğul olan sakinlərdən Əli İsmayılov deyir ki, ötən əsrin 80-ci illərində şərabçılığa qarşı açılmış “müharibə” ittifaqın hər yerində olduğu kimi, muxtar respublikada, eləcə də Sədərək rayonunda da üzüm plantasiyalarının dağıdılması, sıradan çıxarılması ilə nəticələndi. Təbii ki, bu, əhalinin məşğulluğuna da mənfi təsir göstərirdi. Üzümçülük infrastrukturunun dağıdılmasından sonra yüzlərlə insan işsiz qaldı. Ancaq indi rayonda bu sahə yenidən dirçəldilir. Əminəm ki, bir neçə ildən sonra üzümçülük Sədərəyin torpaq mülkiyyətçilərinin əsas məşğuliyyət sahələrindən birinə çevriləcəkdir.

**Sərxan İSMAYILOV**
**“Oğuz yurdu” qəzetinin redaktoru**

Naxçıvan Dövlət Universiteti –50

# Yarıməsrlik ali təhsil ocağı:




*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2017-ci il 14 yanvar tarixli Sərəncamına əsasən Naxçıvan Dövlət Universitetinin 50 illik yubileyi qeyd edilməkdədir. Bununla əlaqədar Tədbirlər Planı təsdiq edilib. Sərəncamda bu ali təhsil ocağının yarım əsr ərzində keçdiyi inkişaf yolu yüksək qiymətləndirilərək deyilir:* ***"Naxçıvan Dövlət Universiteti yüksək ixtisaslı kadrların yetişdirilməsinə, elmi və ali təhsil mühitinin formalaşmasına öz təsirini göstərmiş, fəaliyyət göstərdiyi dövrdə universitetin 30 minə yaxın məzunu olmuşdur. Naxçıvan Dövlət Universitetinin məzunları ölkəmizdə milli dövlət quruculuğunun və təsərrüfat həyatının müxtəlif sahələrində çalışaraq iqtisadi, elmi və mədəni potensialın gücləndirilməsinə layiqli töhfələr verirlər".***

Sivilizasiyanın beşiyi olan Nuhun vətəni Naxçıvan dünyada nəinki zəngin tarixi irsi və mədəniyyəti, eyni zamanda böyük ziyalı ordusu və dahi şəxsiyyətləri ilə də şöhrət qazanıb. Tarixən maarifçi ideyaların geniş intişar tapdığı, əvəzsiz ədəbi nümunələrin, memarlıq incilərinin, musiqi əsərlərinin, elmin müxtəlif sahələrinin təşəkkül etdiyi bu diyar dünyanın ən zəngin mədəniyyət mərkəzlərindən biridir. Bunu şərtləndirən başlıca amillər isə Naxçıvanın Şərq və Qərb mədəniyyətlərinin qovuşduğu məkanda yerləşməsi, geosiyasi mövqeyi və tarixin müxtəlif dövrlərində Azərbaycanın paytaxtı olması kimi xarakterizə edilir.



XIX əsrin sonu, XX əsrin əvvəllərində Məhəmməd Tağı Sidqi, Cəlil Məmmədquluzadə, Eynəli bəy Sultanov, Əliqulu Qəmküsar, Məhəmməd ağa Şahtaxtinski, Hüseyn Cavid, Məmməd Səid Ordubadi və onlarla mütəfəkkir və ədiblərin başladığı maarifçilik hərəkatı və ədəbi yüksəliş zamanla Naxçıvanda elmin və təhsilin yeni müstəvidə inkişafına təkan verdi. Hələ XIX əsrdən düşüncələrdə başlanan bu oyanış XX əsrin ortalarında Naxçıvanda ali təhsilin, konkret desək, ali təhsil müəssisəsinin yaradılması ideyasını gerçəkləşdirdi. Ümummilli lider Heydər Əliyevin də bu prosesə verdiyi qiymət çıxışlarından birində belə səslənmişdir: ***"Naxçıvan Dövlət Universitetinin bu gün mövcud olması Naxçıvanda min illər bundan öncə elmin, mədəniyyətin varlığının, inkişafının məntiqi nəticəsidir".***



Beləliklə, Naxçıvanda ilk ali təhsil ocağı 1967-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Naxçıvan filialı kimi fəaliyyətə başladı. İlk tədris ilinə 3 ixtisas üzrə 102 tələbə qəbulu ilə başlayan ali təhsil müəssisəsində birinci il cəmi 3 müəllim çalışırdı. Regionun yüksəkixtisaslı mütəxəssislərə olan tələbatını ödəmək zərurəti ali təhsil ocağının filial kimi deyil, müstəqil ali məktəb kimi fəaliyyətini şərtləndirdi. Bunun nəticəsində 1972-ci ildə filialın bazası əsasında Naxçıvan Dövlət Pedaqoji İnstitutu yaradıldı.

İlk mərhələdə pedaqoji kadrlara olan tələbat zaman keçdikcə sosial-iqtisadi və mədəni həyatın digər sahələrini də əhatə etdi. Ali məktəbdə yeni ixtisasların açılması onun fəaliyyətini daha geniş müstəvidə həyata keçirilməsinə şərait yaratdı. Bu səbəbdən Azərbaycan Respublikası Nazirlər Kabinetinin 29 dekabr 1990-cı il tarixli 584 saylı qərarı ilə Pedaqoji İnstitut Naxçıvan Dövlət Universitetinə çevrildi.

Ümummilli lider Heydər Əliyev Naxçıvanda ali təhsilin inkişafına xüsusi qayğı ilə yanaşmış, fəaliyyətinin bütün dövrlərində bu ali təhsil ocağının inkişafı və yenilənməsini diqqətdə saxlamışdır. Ulu öndərin bu ali məktəbdə dörd dəfə olması deyilənlərə bariz sübutdur. Azərbaycana birinci rəhbərliyi dövründə ilk dəfə 1974-cü il oktyabrın 4-də Naxçıvan Dövlət Pedaqoji İnstitutunun kollektivi qarşısında çıxış edən görkəmli dövlət xadimi Heydər Əliyev Naxçıvanda universitetin yaradılması zərurəti ideyasını irəli sürmüşdür. Ulu öndər Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində çalışdığı dövrdə də iki dəfə universitetdə olmuş, professor-müəllim heyəti və tələbələr qarşısında çıxış etmiş, universitetin gələcək fəaliyyət strategiyasını öz tarixi çıxışlarında səsləndirmişdir.

1999-cu il oktyabrın 11-də universitetin 1600 yerlik yeni tədris korpusunun açılışında çıxış edən ümummilli lider XX əsrin 70-ci illərindəki uzaqgörən təşəbbüsünü xatırlayaraq demişdir: ***"Naxçıvan Muxtar Respublikasının Dövlət Universiteti Azərbaycanın ən dəyərli, qabaqcıl ali məktəblərindən, ali təhsil ocaqlarından biridir... Mən bu gün böyük iftixar hissi keçirirəm ki, 30 il öncə əsasını qoyduğumuz bu gözəl təhsil ocağı indi böyük şöhrətə malikdir..."***

Dahi rəhbərin 2002-ci il 12 iyun tarixli Sərəncamı ilə Naxçıvan Dövlət Universitetinə yüksək özünüidarə statusu verilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də iki dəfə bu ali təhsil ocağında olmuşdur. 2004-cü ildə Naxçıvan Dövlət Universitetinin Elektron kitabxanasının açılışında iştirak edən dövlət başçısı universitetdə informasiya texnologiyalarının tətbiqinin mövcud vəziyyəti ilə maraqlanmış, tələbələr qarşısında çıxış etmişdir. 2007-ci ildə universitetin 40 illik yubiley mərasimi və Konservatoriya binasının açılışında iştirak edən ölkə başçısı ali təhsil ocağının 40 illik fəaliyyətində əməyi olan pedaqoji kollektivin üzvlərindən bəzilərini təltif etmiş, professor-müəllim heyəti qarşısında tarixi nitq söyləmişdir.

Ali təhsil ocağının fəaliyyətində 1995-ci ildən sonrakı dövr xüsusi əhəmiyyəti ilə seçilir. Ötən illər ərzində yeni tədris korpuslarının tikintisi, maddi-texniki bazanın zənginləşməsi, ali təhsil ocağının genişlənmiş beynəlxalq əlaqələrinin qurulması Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun muxtar respublikada ali təhsilin müasir standartlar səviyyəsində qurulmasına verdiyi böyük tarixi töhfədir.

Hazırda Naxçıvan Dövlət Universitetində 12 fakültədə 58 ixtisas üzrə bakalavr, 43 ixtisas üzrə magistr, 35 ixtisas üzrə doktorant hazırlığı həyata keçirilir. Ümumilikdə, universitetdə 6 minə yaxın tələbə təhsil alır. Onlar arasında Türkiyə, İran, Nigeriya, Banqladeş də daxil olmaqla, 12 ölkədən 300-dən çox xarici vətəndaş vardır.



Naxçıvan Dövlət Universitetində elmi-pedaqoji fəaliyyətlə məşğul olan müəllimlər sırasında akademik, elmlər doktoru və fəlsəfə doktorlarının sayı durmadan artır. Universitetdəki "Regionun inkişafı problemləri" laboratoriyasında qədim diyarın tarixi, mədəniyyəti və iqtisadiyyatı öyrənilir. Bu ali təhsil ocağında fəaliyyət göstərən Heydər Əliyev Universiteti müasir gəncliyin milli dövlətçilik və vətənpərvərlik ruhunda formalaşmasında mühüm əhəmiyyətə malikdir. Naxçıvan Dövlət Universitetinin 108 hektarlıq ərazisində 16 tədris korpusu, Elektron kitabxana, Konservatoriya, Sosial Xidmət Mərkəzi, Universitet Xəstəxanası, Olimpiya-idman mərkəzi, 2 stadion, Baytarlıq Təbabəti klinikası və müasirtipli Tələbə evi yerləşir. Azərbaycan ali təhsil sistemində ilk dəfə olaraq tələbələr üçün 3 mərtəbəli sosial xidmət mərkəzi, müasirtipli universitet qonaq evi tikilərək istifadəyə verilmişdir.

Universitetdə 3 internet mərkəzi, "Qeyrət" nəşriyyatı, Media mərkəzi, televiziya, "Elmi əsərlər" jurnalı, "Yeni fikir" qəzeti, "Nuhçıxan" radiosu və bir neçə muzey fəaliyyət göstərir. Universitetin "Elmi əsərlər" jurnalı Ali Attestasiya Komissiyasının reyestrinə daxil edilmiş və beynəlxalq kod almışdır.

Naxçıvan Dövlət Universiteti Amerika Birləşmiş Ştatları, İngiltərə, Çin, Rusiya, Fransa, Almaniya, İspaniya, Cənubi Koreya, Türkiyə, Misir Ərəb Respublikası, Pakistan, İran, Özbəkistan və digər ölkələrin ali məktəbləri ilə geniş əlaqələrə malikdir. Bu, bir daha təsdiq edir ki, Naxçıvan Dövlət Universitetində tədrisin təşkilində beynəlxalq təcrübənin öyrənilməsinə ciddi əhəmiyyət verilir.

2014-cü ildə Azərbaycandan Kənarda Təhsil Almış Mütəxəssislər təşkilatının (AKTAM) Azərbaycan Respublikası Təhsil Nazirliyinin sifarişi ilə həyata keçirdiyi "Azərbaycanda ali məktəblərin reytinqinin müəyyən edilməsi" layihəsində Naxçıvan Dövlət Universiteti 799 balla Azərbaycan ali təhsil müəssisələri arasında birinci yerə layiq görülmüşdür.

2015-2016-cı tədris ili daha yaddaqalan olmuşdur. Cənubi Koreyanın KOİCA şirkəti ilə birlikdə Naxçıvan Dövlət Universiteti üçün "Elektron təhsil şəbəkəsi və rəqəmsal multimedia infrastrukturunun yaradılması" layihəsi Azərbaycan ali təhsil məkanında ən irihəcmli və əhəmiyyətli layihələrdən biri kimi tarixə düşmüşdür. Elektron təhsil, Onlayn Sənəd dövriyyəsi, Akademik İdarəetmə, Elektron Poçt və sair kimi təhsilin idarəedilməsi modellərini özündə birləşdirən Elektron Universitet eyni zamanda elektron imtahanları da əhatə edir.

Naxçıvan Dövlət Universitetinin 200 minə yaxın fondu olan kitabxanasında "PROLİB" avtomatlaşdırılmış Kitabxana-İnformasiya İdarəetmə sistemi vasitəsilə bu günədək 3500 adda 30 min sayda kitabın elektron kataloqu yazılmışdır. 5000-dən artıq kitabın isə tammətnli elektron versiyası hazırlanaraq oxucuların istifadəsinə verilmişdir. Yeni nəsil gəncliyin hərtərəfli inkişafını təmin etmək üçün Naxçıvan Dövlət Universitetində yaradılmış Tələbə-Gənclər Təşkilatı, Tələbə Elmi Cəmiyyəti, Tələbə Turizm Assosiasiyası, Tələbə İnformasiya Mərkəzi, tələbə teatr və opera studiyaları, xor, vokal və rəqs qrupları, İdman klubu səmərəli fəaliyyət göstərir. Ali təhsil ocağının tələbə təşkilatları universitetdə tələbələrin yaradıcılıq axtarışlarının, bilik və bacarıqlarının, dünyagörüşünün, təşkilatçılıq qabiliyyətlərinin daha da inkişaf etdirilməsinə, asudə vaxtlarının səmərəli təşkilinə geniş imkan yaradır. Bundan başqa, universitetin müəllim və tələbələrinin hazırladığı "Arşın mal alan" operettası Rusiyanın Novosibirsk şəhərində, Türkiyə Cümhuriyyətinin Ərzurum, Samsun, Qars, Ərdəhan, Qara Dəniz Texniki universitetlərində, Gürcüstan Respublikasının Axaltsixi Universitetində uğurla nümayiş etdirilmişdir. Ali təhsil ocağının futbol komandası ölkəmizin ali məktəblərinin birinciliyində çempionluq qazanaraq Azərbaycanı Ukraynada və Polşada təmsil etmişdir.

Beynəlxalq əlaqələrin daha da inkişaf etdirilməsində, elm və təhsil sahəsində qazandığı nailiyyətlərə görə Naxçıvan Dövlət Universiteti 2009-cu ildə Avropa Rektorlar Klubu tərəfindən "Minilliyin universiteti" adına layiq görülmüşdür.

Naxçıvan Dövlət Universiteti Avropa Rektorlar Klubunun, Asiya Universitetlər Assosiasiyasının, Qara Dəniz Hövzəsi Universitetlər Birliyinin, Avrasiya İpək Yolu Universitet Rektorları Cəmiyyətinin və Qafqaz Universitetlər Birliyinin üzvüdür. Beynəlxalq təşkilatlarla əlaqələr Naxçıvan Dövlət Universitetində tədris prosesində və elmi-tədqiqat işlərinin təşkilində, habelə idarəetmədə dünya təcrübəsindən yaradıcı şəkildə faydalanmağa imkan verir.

Naxçıvan Dövlət Universiteti TEMPUS proqramı üzrə 8 beynəlxalq layihənin iştirakçısıdır. Bundan başqa, Naxçıvan Dövlət Universitetində Erasmus-Mundus proqramı əsasında tələbə mübadiləsi həyata keçirilir. Universitetin 30-a yaxın tələbəsi bu proqram çərçivəsində Avropanın tanınmış universitetlərində təhsil almışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 27 iyul tarixində "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" imzaladığı Sərəncam Naxçıvan Dövlət Universitetində də muxtar respublika üçün layiqli kadr potensialı yetişdirilməsi, tələbələrin təcrübi biliklərinin artırılması, onların yüksək intellektli mütəxəssis kimi hazırlanması baxımından mühüm rol oynayır.

Naxçıvan Dövlət Universitetinin məzunları arasında yüksək vəzifəli dövlət məmurları, deputatlar, ali rütbəli hərbçilər, görkəmli alimlər vardır.

*Naxçıvan Dövlət Universiteti möhkəm milli əsaslara malik olan, dövlətçilik təmayüllü və dünyaya inteqrasiya etmiş müasirtipli ali məktəbdir. Dünya universitetləri arasında və ölkənin ali təhsil sistemində özünəməxsus yeri olan Naxçıvan Dövlət Universiteti daim yeniləşmək və inkişaf etmək istiqamətində öz tarixi yolunu bundan sonra da davam etdirəcəkdir.*

**Surə SEYİD**
***Naxçıvan Dövlət Universitetinin tədris işləri üzrə prorektoru, filologiya üzrə fəlsəfə doktoru, dosent***

## Qanunsuz dərman vasitələri satışının qarşısı alınıb

*Ölkəmizdə sosial-iqtisadi sahələrin bütün istiqamətləri üzrə müşahidə olunan uğurlu inkişaf muxtar respublika səhiyyəsini də əhatə edir. Son illərin möhtəşəm quruculuq ünvanlarına daxil olan rayon mərkəzi xəstəxanaları və müasir səhiyyə müəssisələri bunu deməyə əsas verir. Muxtar respublika əhalisinin sağlamlığının qorunmasına göstərilən böyük diqqət və qayğının nəticəsidir ki, son illər ərzində 220-dən çox səhiyyə müəssisəsi müasir standartlara uyğun tikilərək və yeni tibbi avadanlıqlarla təchiz olunaraq istifadəyə verilib. Onlardan 13-ü ötən ilin payına düşür. Tibb ocaqlarında lazımi şəraitin yaradılması, müasir müayinə və müalicə aparatları ilə təchizat hər bir vətəndaşa öz sağlamlığını qorumağa imkan verir.*







Bütün bunlara baxmayaraq, bəzi şəxslər dələduzluq yolu ilə vətəndaşların etibarından sui-istifadə edərək onların sağlamlığına böyük zərbə vururlar.

Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşları tərəfindən keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində bir qrup şəxs tərəfindən külli miqdarda dərman preparatlarının qanunsuz olaraq muxtar respublika ərazisinə gətirilməsi və satışının təşkilinin qarşısı alınıb.

Aparılan araşdırmalar zamanı məlum olub ki, Babək rayonunun Nehrəm kənd sakini Həmzəyev Təhməz Əvəz oğlu Səhiyyə Nazirliyi tərəfindən verilən xüsusi icazə, lisenziya əldə etmədən qanunsuz olaraq sahibkarlıq fəaliyyəti ilə məşğul olub. O, heç bir tibbi təhsili olmadığı halda qanunsuz olaraq bir qrup şəxslə əvvəlcədən razılığa gələrək dövlət qeydiyyatına alınmamış və normativ-texniki tələblərə cavab verməyən dərman preparatlarının muxtar respublika ərazisindəki əczaxanalarda satışını təşkil edib.

Təhməz Həmzəyev sosial şəbəkələrdəki (facebook və instaqram) səhifələrində özünü insanlara həkim kimi təqdim edərək daha geniş ictimaiyyət arasında tanınmağa çalışıb. Təhməz Həmzəyev bu qanunsuz fəaliyyətini bir qrup şəxslə birlikdə həyata keçirib.

Qeyd etdiyimiz kimi, qruplaşma üzvləri dərman məhsullarını satmaq məqsədilə instaqramda "Naxçıvan hekim meslehetleri" və "Tiens group Naxçıvan" səhifələri yaradıblar. Sonra qrupun üzvlərindən olan, özünü "Əsəd həkim" kimi insanlara təqdim edən Əsəd Cəfərov həmin səhifələr vasitəsilə Çinin "Tiens" firmasının dərman məhsullarını reklam etməyə başlayıb. Həmin səhifələr vasitəsilə dərmanların qanunsuz olaraq onlayn satışı ilə yanaşı, insanlara xəstəlikləri ilə bağlı həkim məsləhətləri veriblər. Müraciət edən hamilə qadına özünü ginekoloq kimi tanıdan bu şəxslər insanları aldadaraq doğuş öncəsi tibbi müayinə təyin edib, bel sümüyündə əyrilik problemi ilə müraciət edən digər bir qadına isə müalicə təyinatı üçün kürəyinin şəklini çəkərək onlara yollamasına nail olub, həmçinin ayrı-ayrı şəxslərə özlərini kardioloq, androloq, psixoloq kimi tanıdaraq onlara təsəvvürləri olmayan həkimlik sahəsi üzrə müalicə təyin ediblər.

Təhməz Həmzəyev daha sonra orta təhsilli, fəhlə işləyən Şərur rayonunun Qarahəsənli kənd sakini Hüseynov Qiyas Abuzər oğlu və Culfa rayonunun Boyəhməd kənd sakini İmranlı Ürfan Ramazan oğlu ilə tanış olaraq dərmanların satışını həyata keçirmək məqsədilə razılığa gəlib. Qiyas Hüseynovu dərman satışı sahəsində mütəxəssis kimi yetişdirəcəyini, ondan bu istiqamətdə imtahan götürməklə səviyyəsini müəyyənləşdirəcəyini bildirib və ona "Tiens" firmasının dərman kataloqunu verib.

Təhməz Həmzəyev görüşdüyü şəxslərə qazancın 15-20 faizini təklif edib. Lakin Qiyas Hüseynov və Ürfan İmranlı Təhməz Həmzəyevin fəaliyyətində dələduzluq olduğunu hiss edərək ondan uzaqlaşsalar da, vətəndaşlıq məsuliyyətini dərk etməyərək bu barədə hüquq-mühafizə orqanlarına məlumat verməyiblər.

Təhməz Həmzəyev dərmanların satışını təşkil etmək məqsədilə əczaxanalardan istifadə etmək qərarına gəlib. Bunun üçün Naxçıvan şəhəri, Atatürk 5 ünvanında yerləşən "Prestij" əczaxanasında işləyən Babək rayonunun Cəhri kənd sakini Əhmədov Sadiq Əmir oğlu ilə görüşərək, Çindən gətiriləcək dərman vasitələrinin satışını təşkil etmək barədə razılıq əldə edib. Onlar həmin dərman vasitələrini vətəndaşlara satarkən Dövlət Təhlükəsizliyi Xidməti əməkdaşları tərəfindən saxlanılıblar. Hazırda fakt üzrə müvafiq tədbirlər həyata keçirilir.

Qeyd edək ki, ölkəmizdə əhalinin keyfiyyətli və təhlükəsiz dərman vasitələri ilə təmin edilməsi məqsədilə bir sıra qanunlar qəbul olunub. "Dərman vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən əraziyə idxal olunan dərman vasitələri müvafiq icra hakimiyyəti orqanı tərəfindən dövlət qeydiyyatına alınır və sertifikatlaşdırılır. Əraziyə dərman idxalına yalnız xüsusi icazə – lisenziya əsasında icazə verilir. Yalnız vətəndaşlar şəxsi istifadə üçün zəruri miqdarda dərman vasitəsini özləri ilə xaricdən gətirə bilərlər. Bildirmək istəyirik ki, idxal olunan dərman vasitələrinin təyinat göstəricilərində Azərbaycan dilində istehsal edən ölkənin və istehsalçının adı, hüquqi ünvanı, hazırlanma tarixi və seriya nömrəsi, tətbiq olunma qaydası, dozası, yararlılıq müddəti, saxlanma şəraiti, tətbiqi zamanı təhlükəsizlik tədbirləri, əksgöstərişləri və yan təsirləri barədə məlumatları özündə əks etdirməlidir. Lakin Təhməz Həmzəyevin yaşadığı mənzilə baxış zamanı aşkar edilib ki, o, dərman vasitələrinin saxlanma şəraitinə əməl etməyib və heç bir normativ-hüquqi akta uyğun gəlməyən, antisanitar şəraitdə saxlayıb.

Saxlanılan şəxslərin fəaliyyətində dərman vasitələrinin qanunsuz dövriyyəsi, qanunsuz sahibkarlıq ilə yanaşı, son dövrlər beynəlxalq fırıldaqçılıq şəbəkəsi kimi tanınan Piramida Şəbəkə Marketinq fəaliyyəti də ortaya çıxıb. Belə ki, şəbəkəyə daxil olan şəxs məhsulu baha qiymətə aldıqdan sonra məhsulların satışına əlavə şəxslər cəlb edir, cəlb etdiyi hər şəxsə görə əlavə faiz alır, cəlb olunan şəxslər də yeni insanlar cəlb etməklə qazanc əldə etməyə çalışırlar. Nəticədə, piramidanın başında olan şəxslər külli miqdarda qazanc əldə etsələr də, aşağıda olan şəxslər fırıldaqçılığın qurbanına çevrilirlər.

Bütün bunlar bir daha onu göstərir ki, bu cür dələduzlara aldanmaq olmaz. Çünki sağlamlığımız bizim ən böyük sərvətimizdir. Bu cür insanların qanunsuz əməllərindən uzaq olmaq, qanun-qaydalara əməl etmək lazımdır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin İctimaiyyətlə əlaqələr şöbəsi***

## Elan

Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi 2017-ci ilin yaz-yay mövsümü üçün əşya əmlaklarının satın alınması məqsədilə təkliflər sorğusu elan edir.

Təkliflər sorğusu 2 (iki) lot üzrə keçirilir.

*Lot-1: Yaz-yay mövsümü üçün müxtəlif növ əşya əmlaklarının satın alınması*

*Lot-2: Hərbi ayaqqabıların satın alınması*

Təkliflər sorğusunun iştirakçılarına təklif edilir ki, öz təkliflərini möhürlənmiş, imzalanmış ikiqat zərfdə yazılı surətdə təqdim etsinlər.

Şərtləri yerinə yetirmək üçün təkliflər sorğusunun iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

"Əsas şərtlər" toplusunu Naxçıvan şəhəri, Cəlil Məmmədquluzadə küçəsində yerləşən Fövqəladə Hallar Nazirliyinin Maliyyə-iqtisadiyyat şöbəsindən (əlaqələndirici şəxs: Cabbarov Murad Rasim oğlu, telefon: 544-48-34) ala bilərlər.

Sənədlər 28 aprel 2017-ci il tarixdə saat $13^{00}$-dək qəbul olunur.

Təklif zərfləri 29 aprel 2017-ci il tarixdə saat $11^{00}$-da yuxarıda qeyd olunan ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

## Olimpiadanın final mərhələsində muxtar respublikanı 66 şagird təmsil edəcək



*İstedadlı şagirdlərin aşkar edilməsi, onların potensiallarının artırılması, həmçinin şagirdlər arasında sağlam rəqabət şəraitinin yaradılması məqsədilə təşkil olunan respublika fənn olimpiadalarının final mərhələsi IX, X və XI sinif şagirdləri arasında 8 fənn üzrə keçirilib.*

Bu il olimpiadanın final mərhələsində muxtar respublika üzrə Azərbaycan dili fənnindən 12, tarixdən 7, coğrafiyadan 20, riyaziyyatdan 8, fizikadan 3, kimyadan 5, biologiyadan 10, informatikadan 1 məktəbli olmaqla, ümumilikdə, 66 şagird iştirak edib. Fənn olimpiadalarının final mərhələsində şagirdlərə açıqtipli, isbat, izahat, həll tələb edən sual və tapşırıqlar təqdim olunub.

Məlumat üçün bildirək ki, bu il keçirilən respublika fənn olimpiadalarında muxtar respublikanın ümumtəhsil məktəblərindən 208 şagird yarımfinal turunda iştirak edib və onlardan 66-sı final mərhələsinə qatılmaq hüququ qazanıb. Ötən illə müqayisədə bu göstərici 21 nəfər çoxdur. Belə ki, ötən il keçirilən fənn olimpiadalarının final mərhələsində 45 şagird iştirak etmişdi.

Qeyd edək ki, son mərhələdə iştirak edən bütün şagirdlərə olimpiadanın "İştirak" sertifikatı veriləcək. Yekunda hər fəndən ölkə üzrə 30 nəfər qalib seçiləcək. Final mərhələsində qalib gələn şagirdlər müvafiq olaraq qızıl, gümüş, bürünc medal, diplom və müxtəlif hədiyyələrlə təltif olunacaqlar. Hər bir fəndən ölkə üzrə ən güclü şagird "Birincilərin birincisi" nominasiyası üzrə təltif ediləcək.

**✍ Nail ƏSGƏROV**

## Beynəlxalq Yer Kürəsi Günü münasibətilə təmizlik aksiyası keçirilib



***Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən ali təhsil müəssisələri tələbələrinin iştirakı ilə Duzdağ Fizioterapiya Mərkəzinə gedən yolun ətrafında 22 aprel – Beynəlxalq Yer Kürəsi Günü münasibətilə təmizlik aksiyası keçirilib.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun, Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman, Ekologiya və Təbii Sərvətlər nazirliklərinin, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin birgə təşkilatçılığı ilə keçirilən aksiyada 60 tələbə iştirak edib.

Tədbirdə Gənclər və İdman Nazirliyi Aparatının şöbə müdiri Nicat Babayev, Ekologiya və Təbii Sərvətlər Nazirliyi Aparatının şöbə müdiri Azər Məmmədov çıxış edərək bildiriblər ki, Beynəlxalq Yer Kürəsi Gününün yaranma tarixi XIX əsrin 40-cı illərinə təsadüf edir. Belə ki, o dövrdə Amerika Birləşmiş Ştatlarının Nebraska ştatının sakini Corc Morton tərəfindən yaşıllaşdırma gününün keçirilməsi təklif olunub. 1882-ci il aprelin 22-də ilk dəfə Nebraska ştatında Ağac Günü rəsmi olaraq bayram günü kimi qeyd olunub. 1970-ci ildən isə ekoloji fəallardan olan senator G.Nelsonun təklifinə əsasən ekoloji problemlərə, ətraf mühitin çirklənməsinə diqqəti cəlb etmək məqsədilə həmin günün adı dəyişdirilərək Yer Kürəsi Günü adlandırılıb.

Bildirilib ki, Beynəlxalq Yer Kürəsi Günü bu gün ölkəmizdə, o cümlədən Naxçıvan Muxtar Respublikasında qeyd olunur. Hər il aprelin 22-də muxtar respublikada Beynəlxalq Yer Kürəsi Gününün mahiyyətini özündə əks etdirən tədbirlər təşkil edilir, gənclərin həmin tədbirlərdə yaxından iştirakı təmin olunur. Bu istiqamətdə görülən işlərə gənclərin təmizlik aksiyalarını, təbiət guşələrinə ekskursiyalarını misal göstərmək olar. Aksiyanın keçirilməsində məqsəd gənclərin diqqətini ekoloji məsələlərə cəlb etməkdir.

Sonra tələbələrin iştirakı ilə təmizlik aksiyasına start verilib. Onlar yaşıllıq zolağındakı ağaclara aqrotexniki qulluq göstərib, ətrafda səliqə-sahman yaradıblar.

Daha sonra "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi ilə tanış olan gənclər çay süfrəsi arxasında ekologiyanın mühafizəsində gənclərin rolu barədə diskussiyalar aparıblar.

## İdmançılarımız ölkə çempionatında altı medal qazanıblar

***Bakı şəhərində keçirilən Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin əməkdaşları arasında sərbəst güləş üzrə ölkə birinciliyinə yekun vurulub. Üç gün davam edən yarışda Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin idmançıları da mübarizə aparıblar.***

Daxili İşlər Nazirliyi İdman Cəmiyyətinin rəisi, polis polkovniki Cavanşir Salayevin rəhbərliyi ilə paytaxta yollanan idmançılarımız uğurlu nəticələr əldə ediblər. Belə ki, 16 komandanın mübarizə apardığı çempionatda güləşçilərimizdən 61 kiloqram çəki dərəcəsində Elşən Qasımov, 85 kiloqram çəki dərəcəsində Elvin Əliquliyev və 96 kiloqram çəki dərəcəsində Elməddin Abdullayev həlledici görüşə kimi bütün rəqiblərini məğlub ediblər. Yalnız final görüşlərində məğlub olan idmançılarımız ölkə çempionatını ikinci pillədə başa vurublar. Digər üç güləşçimiz – Mahir Babayev (66 kiloqram), Ramal Qafarov (74 kiloqram) və Kamil Salayev (96 kiloqram) bürünc medalla kifayətləniblər.

Sonda idmançılarımıza təşkilatçılar tərəfindən diplom və medallar təqdim olunub.

**✍ Ceyhun MƏMMƏDOV**

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 330